

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 26 (21.178)

7 fevral 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Fevralın 6-da 51-ci Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Şaxələndirmə strategiyaları" mövzusunda enerji təhlükəsizliyi "dəyirmi masa"sı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "dəyirmi masa"da iştirak edib.

Münxen Təhlükəsizlik Konfransının sədri Volfqanq Fredrik İşinger tədbir iştirakçılarını və Azərbaycan Prezidenti İlham Əliyevi salamladı.

Artıq Münxen Təhlükəsizlik Konfransı çərçivəsində müzakirə olunan məsələlərin əhatə dairəsinin genişləndiyini, 2013-cü ildən bu siyahıya enerji təhlükəsizliyinin də daxil olduğunu deyən Volfqanq Fredrik İşinger Prezident İlham Əliyevə bu müzakirələrdə iştirakına görə təşəkkür etdi və "dəyirmi masa"nın işinə uğurlar arzuladı.

Sonra tədbirin aparıcısı sözü Azərbaycan Prezidentinə verdi.

Dövlətimizin başçısı "dəyirmi masa"da çıxış etdi.





# Naxçıvan Azərbaycanın sarsılmaz qalasıdır

*Yanvarın 30-da Özbəkistanın* ***podrobno.uz*** *portalında müəllifi Temir İsaev olan* ***"Naxçıvan Azərbaycanın sarsılmaz qalasıdır"*** *sərlövhəli yazı dərc olunmuşdur. Məqalədə Naxçıvanın tarixi və müasir inkişafı haqqında ətraflı məlumat verilir. Maraqlı olacağını nəzərə alaraq məqalənin tərcüməsini qəzetimizin bugünkü nömrəsində oxucular təqdim edirik.*



Xalqın qədimliyinin göstəricisi onun yaratdığı maddi-mədəniyyət abidələridir. Ən qədim sivilizasiya ocaqlarından biri olan Azərbaycan ta qədimdən tarixçi və mədəniyyətşünasların diqqət mərkəzində olmuşdur. Min illər ərzində bu diyarda yaradılmış çox zəngin mədəni irs dünya mədəniyyət xəzinəsinə daxil olmuşdur. Elmi axtarışlar sübut edir ki, Azərbaycan bəşəriyyətin formalaşdığı mərkəzlərdən biri olsa da, onun çox zəngin tarixi hələ də dünya ictimaiyyətinə çatdırılmamışdır.

Naxçıvan Azərbaycanın ayrılmaz hissələrindən biridir. Qədim Naxçıvan torpağı ibtidai icma, antik, orta əsrlər və yeni dövr tarixinin maddi-mədəniyyət nümunələri ilə zəngindir. Bunlar arasında ilk insan məskənləri olan mağaralar, ən qədim yaşayış məskənləri, ilkin şəhərlərin qalıqları, möhtəşəm qalalar və iqçalalar vardır.

Tarix gec-tez hər şeyi, necə deyərlər, yerbəyer edir. Azərbaycanın Naxçıvan regionu sivilizasiyanın yayılmasının əsas mərkəzləri sırasına daxildir. Görkəmli memar Əbubəkr oğlu Əcəmi Yusif Küseyiroğlu və Möminə xatın məqbərələri kimi gözəl memarlıq abidələrini qoyub getmişdir. Naxçıvan Azərbaycan xalqının vətənidir və tarixin bütün dövrlərində Azərbaycanın bir hissəsi olaraq qalmışdır. Lakin bu gün Naxçıvan xəritədə ana Vətəndən ayrı düşmüş ada kimidir. Xəritəyə nəzər saldıqda belə nəticəyə gəlmək olar ki, ədalətsiz bölüşdürmə bu ərazidən yan keçməyibdir.

Tarix elmi Naxçıvana, hər şeydən öncə, Kür-Araz mədəniyyətinə məxsus insan məskənlərinin sosial-iqtisadi strukturu ilə şərtlənən cəmiyyət kateqoriyası kimi baxır.

Naxçıvanın ilkin şəhərləri Cənubi Qafqaz, Yaxın Şərq və Ön Asiya arasında ticarət əlaqələrində mühüm rol oynamışlar. Naxçıvan Muxtar Respublikasının əlverişli təbii-coğrafi şəraiti imkan vermişdir ki, hələ ən qədim Daş dövründə bu ərazidə insanlar məskunlaşsınlar. Çoxlu sayda karst mağaraların mövcudluğu buna şərait yaradırdı.

XII-XIV əsrlərdə Naxçıvan şəhəri təkcə Azərbaycanın deyil, həm də Yaxın Şərqin mühüm inzibati-siyasi, sənət, ticarət və mədəni mərkəzlərindən biri olmuşdur. Naxçıvan çox zəngin tarixə malik Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusu qazanması 1918-1921-ci illərdə müxtəlif xarici amillər və geosiyasi vəziyyətin təsiri altında regionda baş vermiş hadisələrin nəticəsində mümkün olmuşdur. Muxtariyyət statusu bu diyarın sonrakı taleyində çox mühüm rol oynamışdır. Naxçıvan Muxtar Respublikasının yaranması çox mürəkkəb siyasi şəraitdə Azərbaycan xalqının böyük tarixi nailiyyəti idi.

XX əsrin əvvəlləri, xüsusən də 1918-1920-ci illər Naxçıvan üçün çox ağır illər olmuşdur. Naxçıvan məsələsi müxtəlif ziddiyyətli geosiyasi maraqların toqquşma nöqtəsinə çevrilmişdi.

Zəhmətkeşlərin çoxlu sayda xahiş və istəklərini nəzərə alaraq, Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz hissəsi elan etdi. Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə 1921-ci ilin əvvəlində keçirilən ümumxalq səsverməsində diyar əhalisinin 90 faizindən çoxu Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyətinin lehinə səs verdi. Bu məqsədə real şəkildə çatmaq üçün Moskvanın razılığını almaq lazım idi.

Öz növbəsində, Türkiyə isə Azərbaycanın tərkibində Naxçıvana muxtariyyət verilməsinə zəmanət tələb edirdi. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun prinsipial mövqeyi və onun Moskvada apardığı danışıqlar Kremlin bu problemə olan mövqeyini dəyişdi və nəticədə, Naxçıvanın Azərbaycanın tərkibində statusu təsdiq olundu. Naxçıvanın muxtariyyət statusu Moskvada Türkiyə və Rusiya arasında imzalanmış müqavilə ilə təsdiq olundu. 13 oktyabr 1921-ci il tarixdə RSFSR-in iştirakı ilə Azərbaycan SSR, Gürcüstan SSR, Ermənistan SSR və Türkiyə arasında Qars müqaviləsi imzalandı ki, bununla da, Naxçıvanın ərazisi və sərhədləri bir daha dəqiqləşdirildi. Bu beynəlxalq sənədlərin altında Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan öz imzalarını qoymuşlar. Muxtariyyət statusu Naxçıvan diyarına milli əlamətlərə görə deyil, daxili və xarici amillərin əsasında, onun coğrafi və geosiyasi vəziyyətinə görə verildi. Naxçıvan Muxtar Respublikası anklav kimi yaradıldı.

Qısa tarixi dövr ərzində Naxçıvan Muxtar Respublikası dövlətçilik və demokratikləşdirmə işində əlamətdar uğurlar qazandı, bütövlükdə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə diqqətəlayiq rol oynadı. Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etməyə nail oldu. 1990-cı ilin əvvəllərində muxtar respublika tam iqtisadi blokadaya alınmışdı ki, bu da siyasi böhranı dərinləşdirirdi. Naxçıvanlılar növbədənkənar sessiya çağırılmasını tələb edirdilər. Muxtar respublika Ali Sovetinin 17 noyabr 1990-cı il tarixdə işə başlayan birinci sessiyası milli oyanış və siyasi dirçəlişin zəfəri oldu. Sessiyada muxtar respublikanın dövlət rəmzləri müzakirə olundu və Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi bərpa edilməsi qərara alındı.

Siyasi təqiblərə görə 22 iyul 1990-cı il tarixdə Heydər Əliyevin Moskvadan qayıtması muxtar respublika əhalisində gələcəyə ümidlər doğurdu, regionu Ermənistanın işğalından xilas etdi. 3 sentyabr 1991-ci il tarixdə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Muxtar respublika Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda müstəqil, demokratik və dünyəvi dövlət quruculuğu yolunda mühüm addımlar atdı.

12 noyabr 1995-ci il tarixdə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi. Yeni Konstitusiyada Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində muxtar dövlət statusu aldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1995-ci il tarixdə keçirilmiş birinci sessiyasında Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Onun rəhbərliyi altında muxtar respublika blokada şəraitində əhəmiyyətli uğurlar qazandı.

Son 10 ildə müasir və müstəqil Azərbaycanın bütün regionları kimi, Naxçıvan Muxtar Respublikası da öz inkişafının yeni mərhələsini yaşayır. Bu inkişafın əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin siyasəti uğurla davam etdirir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisində 1162 tarixi-mədəni abidə mövcuddur. Bunlardan 58-i dünya, 455-i respublika və 649-u isə yerli əhəmiyyətli abidələrdir.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi Naxçıvan şəhərinin 12 kilometrliyində İlanlıdağ və Nəhəcir dağı arasında təbii mağarada yerləşən ziyarətgahdır. Bu ad ərəb dilindən tərcümədə "mağara əhli" deməkdir. "Qurani-Kərim"in 18-ci surəsi olan "əl-Kəhf"in ("Mağara") 9-27-ci ayələrində 7 gənc haqqında danışılır.

Ardı 2-ci səhifədə




Allahsızları tərk etməli olan bu gənclər mağarada sığınacaq tapır və 300 ildən artıq orada yatırlar. Bu hadisələr bəzi dəyişikliklərlə Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapır.

Uzun illər bu hadisəni gah xristianlıqla bağlayır, gah da cavanlar yatan mağaranı Kiçik Asiyada, Fələstində və hətta dünyanın digər ölkələrində axtarırdılar. Ədəbiyyatda Naxçıvanda yerləşən Əshabi-Kəhf mağarasının adı çəkilmirdi.

Lakin son illər aparılmış tədqiqatlar sübut edir ki, “Qurani-Kərim”də adıçəkilən Əshabi-Kəhf mağarası Naxçıvanın ərazisində yerləşir. Mağaranın qurtaracağındakı məscidin mehrabında bir yazı vardır. 145 x 35 sm ölçülü mərmər lövhənin üzərində “Qurani-Kərim”in 18-ci surəsi olan “əl-Kəhf”in (“Mağara”) 9-12, 17, 18-ci ayələri həkk olunmuşdur. Lövhədən bir az sağda başqa bir yazı da vardır. Orada belə deyilir: “Xeyirxah işlərin hamisi Heydərqulu xanın varisi, Naxçıvan diyarının hökmdarı Şükrullah xan Kəngərli təbii şəraitdən xələl görmüş lövhənin yenisi ilə əvəzlənməsi qərarına gəldi. Bu qərarın yerinə yetirilməsi Molla Mustafanın oğlu Məhəmməd Xatib Naxçıvaniyə həvalə olundu ki, o da bu işi 1190-cı ilin səfər əlmüzəffər ayında başa çatdırdı”.

Əshabi-Kəhfdə bərpa işləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlandı. Bu haqda ziyarətgahın girişindəki lövhədə belə bir məlumat vardır: “Əshabi-Kəhfdə bərpa işlərinə 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı və himayəsi ilə başlanılmışdır”. Bərpa işləri nəticəsində Əshabi-Kəhfə aparan 12 kilometrlik asfalt yol çəkilmiş, yolboyu ağaclar əkilmiş, məscid tikilmişdir. Buranı dünyanın bir çox ölkələrindən gələn zəvvarlar, turistlər ziyarət edirlər.



### *Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı son 10 ildə*

İqtisadiyyatın yüksəlişi, sosial tərəqqi, mədəni dirçəliş – bunlar Naxçıvan Muxtar Respublikasının son illərinin tarixi reallıqlarıdır. Son 10 ildə muxtar respublikada makroiqtisadi göstəricilər artmışdır. Real olaraq iqtisadiyyat 12,5 dəfə, dövlət büdcəsi 11,7 dəfə artmışdır. İqtisadiyyata 3 milyard 704 milyon manat həcmində sərmayə qoyulmuşdur. Sənaye sahəsində, kənd təsərrüfatında, tikinti və nəqliyyat sektorlarında böyük irəliləyişlər baş vermişdir.

2012-ci il mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan Sement Zavodunun açılışı olmuşdur. Burada istifadə olunan xammal – əhəngdaşı, dəmir gili, kvars, gips Naxçıvan Muxtar Respublikasındakı yataqlarda çıxarılır. Bu zavodda istehsal olunan məhsul Avropa İttifaqının keyfiyyət nişanına layiq görülmüşdür.



Təbii mineral su olan məşhur “Badamlı”nı istehsal etmək üçün Naxçıvan şəhərində müasir texnoloji standartlara əsaslanan yeni zavod tikilmişdir. Zavodda Fransanın “Sidel” şirkətinin avadanlıqları quraşdırılmışdır. Qazlı və qazsız mineral su alıcılara şüşə və plastik qablarda çatdırılır.

2010-cu il oktyabrın 5-də Prezident İlham Əliyev Naxçıvanda daha bir zavodun – “Gəmiqaya” Daş Məmulatları Kompleksinin açılışında iştirak etmişdir. Bu kompleks travertin və mərmər istehsalı üzrə ixtisaslaşmışdır. Burada Türkiyə istehsalı olan “Sesemak” markalı avadanlıqlar quraşdırılmışdır.

Muxtar respublikada inşaat materiallarına olan ehtiyacı ödəmək üçün 2 aprel 2013-cü il tarixdə Kommersiya Cəmiyyətləri İttifaqı tərəfindən mühüm əhəmiyyətə malik “Cahan İnşaat” Sənaye Kompleksi istismara



verilmişdir.

Muxtar respublikadakı istehsal müəssisələrindən biri də Naxçıvan Avtomobil Zavodudur. Almaniya, İtaliya və Belçika istehsalı olan avadanlıqlar quraşdırılmış zavodda minik maşınları və mikroavtobuslar buraxılır.

Naxçıvan Muxtar Respublikası regionda elektrik enerjisi ixracatçısıdır. Muxtar respublikada bu uğurlara 87 meqavat gücündə olan modultipli elektrik stansiyalarının, Heydər Əliyev Su Anbarı üzərində tikilmiş su elektrik stansiyasının açılışından sonra nail olunmuşdur.

2003-cü ildə Azərbaycan və İran arasında Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsində yeni körpünün tikilməsi haqqında memorandum imzalanmışdır. 2005-ci ildə tikinti işlərinə başlanılmış, 17 oktyabr 2007-ci il tarixdə isə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə körpünün açılışı olmuşdur.

Naxçıvanda hava limanının yaradılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 2002-ci ilin oktyabrında Naxçıvan Hava Limanının bərpasına başlanıldı və ən müasir



standartlara cavab verən aeroport yaradıldı. Bu gün Naxçıvan Beynəlxalq Hava Limanından ölkənin digər şəhərləri ilə yanaşı, İstanbul və Moskva şəhərlərinə müntəzəm uçuşlar həyata keçirilir.

2008-ci ilin martında muxtar respublikadakı magistrallardan biri olan Naxçıvan-Sədərək avtomobil yolunun tikintisinə başlanıldı.

5 oktyabr 2010-cu il tarixdə dövlət başçısı



İlham Əliyevin iştirakı ilə Naxçıvan-Culfa magistral avtomobil yolu açıldı. O, Culfa və Babək rayonlarını Naxçıvan şəhəri ilə birləşdirən mühüm nəqliyyat qovşağıdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında və bütövlükdə Azərbaycanda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət ölkənin ərazi bütövlüyünü və bundan sonrakı tərəqqisini təmin etmək üçün hər cür şərait yaradır.

**Temir İSAEV**

# Naxçıvan Muxtar Respublikasının yaradılması ölkəmizin həyatında mühüm hadisədir

**Ulu öndər Heydər ƏLİYEV:** ***Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir.***

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Naxçıvan ərazisində hadisələri mürəkkəbləşdirən səbəblərdən biri də XIX əsrin 20-ci illərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi və burada özlərinin dövlətlərini yaratmağa cəhd göstərmələri idi. Rusiya tərəfindən ərazi mübahisələri qızışdırılır və bunları ermənilərin xeyrinə həll etmək siyasəti aparılırdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycana qarşı irəli sürülən əsassız torpaq iddiası bolşevik hakimiyyəti dövründə də davam etdirilmişdir. Həmin illərdə Azərbaycan ilə Ermənistan arasında mübahisəli ərazilər, əsasən, Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ idi.***

1918-ci il may ayında Azərbaycan torpağında yaradılan Ermənistan dövləti 9,8 min kv.km ərazidə yerləşmişdi. Bununla kifayətlənməyən Ermənistan Azərbaycanın 7,9 min kv.km ərazisini də öz ərazisinə qatmaq istəyirdi. Bu ərazilər içərisində Naxçıvan məsələsi xüsusilə qabardılırdı. Belə bir uydurma fikir irəli sürülürdü ki, “Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz”. Ermənilərin xülyalarının gerçəkləşməsi üçün bir sıra dövlətlər ona siyasi dəstək verməklə yanaşı, iqtisadi və hərbi yardım da göstərirdilər. Azərbaycan Xalq Cümhuriyyətinin düşdüyü çətin vəziyyətlə əlaqədar o, Naxçıvana lazım olan köməyi göstərə bilmirdi. Bu vəziyyəti obyektiv qiymətləndirən Naxçıvan əhalisi, yerli ziyalılar, Müsəlman Milli Şurası bütün imkanları və qüvvələri ilə erməni daşnaklarına qarşı inadla mübarizə aparırdı. Naxçıvanın erməni işğalına düşməsinə imkan vermir, hər vəchlə Azərbaycanın tərkibində qalmağa çalışırdılar.

Ermənistanın daşnak rəhbərliyi isə Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdi. Ermənistan hökuməti bildirirdi ki, əgər Azərbaycan Şərur-Dərələyəz qəzasından və Naxçıvan rayonundan imtina edərsə, o da, öz növbəsində, Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razılıq verər. Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov bu təklifi rədd edərək qədim Azərbaycan torpaqları olan Naxçıvan və Culfa ərazilərinin dərhal sovet qoşunları tərəfindən tutulmasını və Azərbaycana birləşdirilməsini təkidlə tələb edirdi.

Naxçıvanın sovetləşməsi uğrunda mübarizəyə başlanıldı və daşnaklara qarşı aparılan əməliyyatlar nəticəsində 1920-ci il iyulun 28-də Naxçıvan şəhəri tutuldu. İyulun 29-da Naxçıvan İnqilab Komitəsi təşkil edildi və bu komitə Naxçıvanı Sovet Sosialist Respublikası elan etdi. Naxçıvan İnqilab Komitəsinin tərkibinə Mirzəli bəy Bektaşov, Abbas Qədimov, Fərəməz Mahmudbəyov, Qafar Babayev və başqaları daxil oldular.

1920-ci il avqustun 10-da Sovet Rusiyası ilə Ermənistan arasında müvəqqəti saziş bağlandı və onun şərtlərinə görə, Şərur-Dərələyəz qeyd-şərtsiz Ermənistana verilirdi. Qarabağ, Zəngəzur və Naxçıvan isə yenə də “mübahisəli vilayətlər” elan olunurdu. Bununla Rusiya Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdürdü. N.Nərimanov Moskvaya göndərdiyi teleqramlarda Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər mübahisəsiz sayılan vilayətlərin indi nədənsə mübahisəli sayılmasına qarşı ciddi etirazını bildirirdi.

1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında başqa bir müqavilə imzalandı. Bu müqavilədə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana güzəşt edilirdi. Bolşevik Rusiyası bu yolla Ermənistanda Sovet hakimiyyəti qurulması üçün zəmin hazırlamaq, ermənilərin rəğbətini qazanmaq istəyirdi.

Ermənistan SSR yaradıldıqdan sonra Azərbaycan ərazisinə iddialar daha da artdı. 1920-ci il noyabrın 30-da AK(b)P MK Siyasi və Təşkilat bürolarının birləşmiş iclasında N.Nərimanovun verdiyi bəyanat və ertəsi gün qəzetlərdə onun saxtalaşdırılmış şəkildə dərc olunması erməni iddialarının daha da artmasına səbəb oldu. N.Nərimanov Ermənistan SSR dərilməsini təklif etmiş və demişdi ki, “Sovet Azərbaycanı ilə sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur”.

Qərarda da, N.Nərimanov çıxışında da, 1920-ci il dekabrın 1-də Bakı Sovetinin iclasında onun elan etdiyi bəyannamədə də Naxçıvan haqqında məsələ qaldırılmamışdı. Qəzetlərdə dərc olunmuş bəyannaməyə aşağıdakı fikir əlavə edilmişdi: “Zəngəzur və Naxçıvan qəzalarının ərazisi sovet Ermənistanının ayrılmaz ərazisidir”. Bu sözlər, ola bilsin, diplomatik mülahizələrə görə, Q.Orconikidze, S.Kirov və onların həmfikirləri tərəfindən ora daxil edilmişdi. Həmin fikir ermənilərin yeni addımlar atmasına təkan verdi və dekabrın 25-də onlar Zəngəzurda “Azad Sünik hökuməti” təşkil etdilər. Zəngəzur qəzasının qərb hissəsi Ermənistanın əlinə keçdi.

N.Nərimanov və onun yaxın silahdaşlarının qəti mövqeyi və prinsipiallığı sayəsində Naxçıvanı Ermənistana birləşdirmək cəhdi baş tutmadı. 1920-ci il dekabrın 2-də Aleksandropolda (Gümrüdə) Ermənistanın daşnak hökuməti ilə Türkiyə arasında imzalanmış müqaviləyə əsasən, sonradan Naxçıvan, Şərur və Şahtaxtıda səsvermə yolu ilə xüsusi idarəçilik yaradılmalı idi və Ermənistan onun işinə qarışmamağı öz öhdəsinə götürürdü. Həmin müqaviləyə əsasən, türk generalı Veysəl Ünüvar özünü müvəqqəti fövqəladə komissar elan etdi, öz dəstələri ilə Şərur da daxil olmaqla Ermənistanla sərhəd məntəqələrini tutdu. Nəticədə, 1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyannamə ilə çıxış edərək Naxçıvanın müstəqilliyini tanıdığını elan etdi.

Naxçıvanda əhalinin narazılığı get-gedə artırdı. Bununla əlaqədar Azərbaycan İnqilab Komitəsinin üzvü, ədliyyə komissarı Behbud ağa Şahtaxtinski Naxçıvana göndərildi. Naxçıvanda, Ordubadda, Şərurda və başqa yerlərdə Naxçıvanın Ermənistana verilməsinə qarşı böyük mitinqlər keçirilirdi. Əhalinin əksəriyyəti Azərbaycanın tərkibində müstəqil Naxçıvan Sovet Sosialist Respublikasının yaradılmasını tələb edirdilər. 1921-ci ilin yanvar ayında Naxçıvanda onun Azərbaycan SSR tərkibinə daxil olması barədə rəy sorğusu keçirildi. Rəy sorğusu nəticəsində respublika əhalisinin 90 faizindən çoxu Naxçıvan diyarının Azərbaycan SSR tərkibində qalmasına tərəfdar çıxdı.

Naxçıvan əhalisinin böyük əksəriyyətinin bir neçə illik inadlı mübarizəsi və rəy sorğusunun nəticəsi Naxçıvanın ərazi statusunu həll etdi. Rusiya tərəfi Naxçıvanın əhalisinin iradəsi ilə hesablaşaraq və eləcə də Azərbaycan bolşeviklərinin millətsevər hissəsinin mövqeyini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qaldı.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasında Behbud ağa Şahtaxtinskinin əməyini xüsusilə qeyd etməliyik. Onun RSFSR XKS-nin sədri V.İ.Leninə yazdığı 13 avqust, 20 sentyabr, 7 oktyabr 1920-ci il və xüsusən 1 mart 1921-ci il tarixli məktub və teleqramlarda, əlavə etdiyi arayışlarda bolşevik hakimiyyətinin Şərq siyasəti, bu zaman yol verilmiş səhvlər, Rusiya-Türkiyə münasibətlərinin qurulması və bunun Rusiya üçün əhəmiyyəti, Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanın ərazi bütövlüyü problemi, Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və ona muxtariyyət verilməsi və başqa məsələləri çatdırmış, təklif və mülahizələrini bildirmişdi.

*Ardı 3-cü səhifədə*

Behbud ağa Şahtaxtinskinin təklifləri V.İ.Lenini maraqlandırmış və o, məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdi. Bu zaman Türkiyədən gələn nümayəndə heyəti ilə də danışıqlar aparılırdı. Danışıqlarda bir sıra məsələlərlə yanaşı, Naxçıvan məsələsi də müzakirə olunurdu. Naxçıvan məsələsinin həm Siyasi Büroda, həm də Türkiyə-Rusiya danışıqlarında müzakirə edilməsi onun ədalətli həllinə kömək göstərdi. 1921-ci il martın 16-da Naxçıvanla bağlı iki mühüm qərar qəbul edildi. RK(b)P MK Siyasi Bürosu Behbud ağa Şahtaxtinskinin təklifini bəyənərək Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikasının yaradılması haqqında qərar qəbul etdi. Həmin gün Türkiyə-Rusiya müqaviləsi də imzalandı. Bu müqavilənin üçüncü bəndinə əsasən, Naxçıvan vilayəti muxtar ərazi statusu alırdı.

Ötən əsrin 20-ci illərində Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələləri nizama salmaq mühüm bir iş kimi qarşıda dururdu. Bunun üçün yeni bir konfrans çağırmaq və orada bu məsələləri həll etmək lazım gəlirdi. Razılığa əsasən, belə bir konfrans Qars şəhərində keçirildi. Qars konfransı 1921-ci il sentyabrın 26-da başladı, oktyabrın 13-də müqavilə bağlanması ilə sona çatdı. Konfransda Moskva müqaviləsinin maddələri bir daha təsdiq edildi. Bu müqavilə ilə Naxçıvanın sərhədləri bir daha dəqiqləşdirildi və bundan sonra bu məsələyə baxılmayacağı qərarlaşdırıldı. Naxçıvan Respublikasının sərhədləri belə müəyyən edildi: "Üçbucaq təşkil edən zonada yerləşən Naxçıvanın ərazisi Urmiya kəndindən başlayan düz xətt boyunca Arazdəyən stansiyasına qədər, yenə də düz xətt boyu qərbi Daşburun dağına (3142 m), suayırıcı xətlə şərqi Daşburun dağından (4108 m) keçib Cəhənnəm dərəsi ilə bulaqdan (cənub) keçib, suayırıcı xətt üzrə Bağırsaq dağından (6607 və ya 6587 m) keçmiş İrəvan dairəsi və Şərur-Dərələyəz qəzasının inzibati sərhədi boyunca 6629 m yüksəkliyindən Kömürlü dağa (6839 və ya 6930) və oradan (3080) yüksəkliyindən Sayat dağı (7868) Qurdqulaq kəndi və Həməsür dağına (8160), 8022 yüksəklik Quru dağa (10282) və bundan sonra keçmiş Naxçıvan qəzasının inzibati sərhədi daxilində müəyyən edilmişdi".

Beləliklə, RSFSR hökumətinin, ingilislərin və amerikalıların ermənipərəst mövqeyinə, erməni daşnaklarının ciddi cəhdlərinə və silahlı mübarizələrinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyəti, dönməz iradəsi, Türkiyə hökumətinin obyektiv mövqeyi və Behbud ağa Şahtaxtinski kimi siyasi xadimlərin diplomatik səyləri nəticəsində Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı.

1921-ci il aprelin 4-də Naxçıvan SSR İnqilab Komitəsi təşkil olundu və həmin ilin sonunda Naxçıvan respublikasında sovetlərə seçkilər keçirildi. 1922-ci il yanvarın 25-də Naxçıvan SSR-in Birinci Sovetlər Qurultayı oldu. Qurultay diyarda sovet və təsərrüfat quruculuğuna dair mühüm qərarlar qəbul etdi. Naxçıvan İnqilab Komitəsi ləğv olundu, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaradıldı.

1922-ci il mayın 22-də AK(b)P MK Rəyasət Heyəti Naxçıvan diyarı haqqında Əsasnamənin və Naxçıvan SSR Konstitusiyasının layihələrinə baxdı. Əsasnamədə deyilirdi: "Naxçıvan diyarı ASSR-in qəyyumluğu altında muxtar respublika elan edilərək Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın". 1922-ci ilin noyabrında V.İ.Leninin sədrliyi ilə RK(b)P MK Siyasi Bürosu Naxçıvan Muxtar Respublikası yaradılmasının zəruriliyi haqqında qərar qəbul etdi.

1923-cü il yanvarın 21-də AK(b)P Mərkəzi Komitəsi RK(b)P Zaqafqaziya Ölkə Komitəsi Rəyasət Heyətinin 18 yanvar 1923-cü il tarixli qərarına əsasən, Naxçıvan MİK və XKS-ni ləğv etdi və Naxçıvan diyar İcraiyyə Komitəsini yaratdı. 1923-cü il fevralın 27-də Naxçıvan Diyar Sovetlər Qurultayında Naxçıvan SSR-in Naxçıvan ölkəsinə çevrilməsi qərara alındı. Diyarı idarə etmək üçün 17 üzvdən ibarət Naxçıvan Diyar İcraiyyə Komitəsi yaradıldı. Həmin il dekabrın 31-də Azərbaycan SSR MİK Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qəti qərar qəbul etdi.

1924-cü il yanvarın 8-də Zaqafqaziya MİK Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul etdi. Nəhayət, 1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında dekret verdi. Dekretdə deyilirdi:

*1. Naxçıvan ölkəsi Azərbaycan SSR-in protektoratlığında Naxçıvan SSR-ə çevrilsin.*

*2. Naxçıvan SSR haqqında Əsasnaməni hazırlamaq üçün Vəlibəyov, Bağırov, T.Şahbazi və A.Axundovdan ibarət komissiya yaradılsın və komissiya bir həftə müddətində həmin layihəni hazırlasın.*

Komissiyanın hazırladığı Əsasnamə 1924-cü il martın 23-də Azərbaycan MİK tərəfindən təsdiq olundu.

Bununla bərabər, muxtar qurum kimi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlandı və 1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayında Naxçıvan Muxtar Respublikasının ilk Konstitusiyası qəbul edildi. Konstitusiyanın ikinci maddəsində deyilirdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının protektoratlığında olmaqla onun tərkib hissəsidir".

Müasir dövrdə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1995-ci il noyabrın 12-də qəbul edilmiş yeni Konstitusiyada Azərbaycan dövlət sistemində özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikasının statusu müasir, yeni şəraitə uyğun olaraq dəqiq şəkildə müəyyən edilmişdir. Yeni Konstitusiyada "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət, Azərbaycan Respublikasının ayrılmaz hissəsi" hesab edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlanmış və 1998-ci il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikasının inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz ölkəmizə rəhbərlik etdiyi dövrlərdə, eləcə də SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri olanda daim Naxçıvanın hərtərəfli tərəqqisi, muxtariyyət statusunun qorunub saxlanılması və daha da möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirindəki nitqində Azərbaycan Prezidenti cənab İlham Əliyev bu barədə demişdir: ***"Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı".***

1990-1993-cü illərdə çətinliklərlə qarşılaşan, erməni basqınları ilə üzləşən Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qorunmuş və inkişafı təmin edilmişdir. Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, muxtar respublikanın 75 illik yubileyinin qeyd olunması, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmişdir.

Ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikanın 80 illik yubileyinin keçirilməsi ilə bağlı 2004-cü ilin 9 fevralında Sərəncam imzalamışdır. Dövlət başçısının 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi ölkəmizdə geniş qeyd edilmişdir. Naxçıvanın üçüncü intibahı dövründə muxtariyyətin dördüncü ali təntənəsinin qeyd olunmasını da məhz cənab İlham Əliyevin imzası təsdiq etdi. Azərbaycan Prezidentinin 2014-cü il yanvarın 14-də imzaladığı Sərəncamla Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda təntənəli şəkildə qeyd olunmuşdur.

1995-ci ildən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə iqtisadiyyatın dirçəlməsinə, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verilmiş, yeni iş yerləri yaradılmış, sərhədlərin etibarlı təhlükəsizliyi təmin edilmişdir. Naxçıvan Muxtar Respublikasında irimiqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri genişlənmiş, tarixə, mədəniyyətə, təhsilə və elmə qayğının yeni mərhələsi başlanmış, səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsinə diqqət artırılmışdır. Bir sözlə, Naxçıvan Muxtar Respublikası heç vaxt indiki qədər abad, güclü, hərtərəfli inkişafa nail olmamışdır.

Blokada şəraitində – iqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu şəraitdə yüksək iqtisadi fəallığa nail olunması, istehsal potensialının hərəkətə gətirilməsi, davamlı quruculuq işləri, sosial problemlərin həlli və ən əsası əhalinin güzəranının yaxşılaşdırılması inkişafın Naxçıvan modelinin xarakterik xüsusiyyətləridir. Ötən dövr ərzində muxtar respublikada qəbul olunmuş mühüm dövlət proqramlarının uğurlu icrası nəticəsində iqtisadiyyatın diversifikasiyasına, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına nail olunmuşdur. Artıq Naxçıvan Ümumi Daxili Məhsul istehsalını 2 milyard 391 milyon manata çatdıran, il ərzində 800 milyon manatdan çox həcmdə sənaye məhsulu istehsal edilən, kənd təsərrüfatının sürətlə inkişaf etdiyi, enerji və ərzaq təhlükəsizliyi tam təmin olunan, yüzlərlə təhsil, səhiyyə və mədəniyyət müəssisələri üçün binalar tikilən, əhalisinin gəlirləri sürətlə artan, rifah halı günü-gündən yaxşılaşan, on minlərlə iş yeri yaradılan, demək olar ki, bütün yolları yenidən qurulan, ən müasir istehsal müəssisələri istifadəyə verilən muxtar respublikadır.

*Bu gün Naxçıvan muxtariyyət tarixinin ən şanlı və əlamətdar dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".***

**İsmayıl HACIYEV**
**AMEA Naxçıvan Bölməsinin sədri, akademik**

# Naxçıvan

## dünən — bu gün









## Xalq yaradıcılığı

**Xalq yaradıcılığının ən qədim sahələrindən biri də şifahi poetik yaradıcılıq kimi dəyərləndirilən folklordur. Azərbaycan ərazisində folklorun tarixi ilk insan məskənlərinin meydana gəlməsi dövrü ilə bağlıdır. Xalqımızın mifoloji-bədii dünyagörüşünün izləri indi də folklorda özünü büruzə verməkdədir. Müxtəlif ayin, mərasim və əmək proseslərinin nəticəsi olaraq meydana gələn Azərbaycan folkloru, ilk növbədə, janr baxımından rəngarəngliyi ilə diqqəti cəlb edir. Xalqımızın yaradıcı düşüncəsinin məhsulu olan miflər, əfsanələr, nağıl və rəvayətlər, zərb-məsəllər, tapmacalar, dastanlar, aşıq yaradıcılığı, meydan tamaşaları, xalq musiqi və rəqsləri nəsildən nəslə, əsrdən-əsrə Azərbaycan türklərinin ruhunu yaşadaraq zamanəmizə qədər gətirib çıxartmışdır. Ənənəvi xalq bayramları, Novruz və Xıdır Nəbi mərasimləri Azərbaycan folklorunun zənginliyini nümayiş etdirir.**

***“Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 fevral 2009-cu il tarixli Sərəncamından***

# Xalqımızın yaradıcı düşüncəsinin məhsulu

***Öz milli kimliyini qorumaq və ona sahib çıxmaq hər kəsin vətəndaşlıq borcudur. Milli kimliyini qoruyub saxlamaq üçün gərək tarixini, milli dəyərlərini dərindən öyrənəsən. Bu sahədə folklor materiallarının toplanması mühüm əhəmiyyət daşıyır. Folklorşünaslıq elminin qarşısında duran əsas vəzifələrdən biri folklor materiallarının toplanmasını sistematik şəkildə həyata keçirməkdir. Bunun üçün dövlətin yaratdığı şəraitdən lazımınca istifadə etməliyik.***

Milli dəyərlərimizin, xalq yaradıcılığının yaşadılması, öyrənilməsi və təbliği istiqamətində Naxçıvanda mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı buna əyani misaldır. Sərəncama uyğun olaraq, Naxçıvanın ərazisində mövcud olan etnoqrafik və folklor materialları yenidən toplanmış, sistemləşdirilmiş və elmi tədqiqatlara cəlb olunmuşdur. Əldə edilmiş materiallar əsasında “Naxçıvan folkloru antologiyası” hazırlanıb nəşr edilmişdir. Xalq yaradıcılığının öyrənilməsi istiqamətində aparılan işlər bu gün də uğurla davam etdirilir.

Ordubaddan topladığımız folklor nümunələrinin, adların, dialekt sözlərin, adət və ənənələrin hər birində Azərbaycan türklərinin mənəvi dünyası əks olunub.

Naxçıvanda çox yaxın keçmişdə belə bir ənənə vardı. Gəlin aparanda bəyin ya atası, ya da böyük qardaşı öz bel qayışını çıxarıb gəlinin belinə bağlayar, sonra ata evindən çıxarardılar. Hal-hazırda bu ənənə bütün Azərbaycanda nazik, bəzəkli qırmızı lentlə əvəz olunub. Bu qırmızı lent daha çox aksesuar kimi gözəl görüntü yaratmaq məqsədinin nəticəsidir. Məlum olduğu kimi, nənələrimizin gəlinlik paltarları və üz örtüyü də, əsasən, qırmızı rəngdə olub. Bu ənənə bu gün də davam edir. Lakin əvvəlki ənənədə ocağın, evin kişisinə məxsus bel qayışının, kəmərinin (qədim zamanlardakı bel qurşağını əvəz edib) gəlinin belinə bağlanmasının bir çox mənası vardır. Xalq arasında bu, yiyə, məxsusluq, gəlinin ər ocağının qeyrətini, şərəfini daşıması məsuliyyəti və sair kimi mənalar ifadə edir. Bununla bağlı söyləyicilərdən alınmış məlumatları daha da artırmaq olar. Lakin bu misalları verməkdə məqsədimiz milli adət və ənənələrimizin dərin məna yükünə malik olduğunu göstərməkdir.

2005-2014-cü illərdə nəşr etdirdiyimiz kitablarda şifahi ədəbiyyat nümunələri – əfsanə, rəvayət, nağıl, bayatı və sair kimi nümunələrlə yanaşı, bölgəyə məxsus yer adları, xalq təbabəti ilə müalicə üsulları, bəzi geyim nümunələri, adlara aid mənalandırmalar, yaşlı insanlarımızın söz boğçasından nümunələr verilib. Bu isə, öz növbəsində, xalqın etnomədəni yaşayış tərzi, bədii dünyagörüşünün formalaşdığı məkanın mənəvi mühitini göz önündə canlandırır.

2006-cı ildə Naxçıvanda tarixi abidələrin pasportlaşdırılması üçün yaradılmış işçi qrupunun tərkibində iştirak etdiyimiz ekspedisiyalar xeyli sayda yeni qədim yaşayış yerləri qeydə alıb. Məhz bu yerlər haqqında topladığımız əfsanə mətnləri əski türk dastanlarındakı mifoloji süjetlərlə üst-üstə düşür. Gülüm-gülüm dağı ilə bağlı söylənən əfsanələr dağları müqəddəs sayan əcdadlarımızın bədii ifadə imkanlarını ortaya çıxarır. Oğlan-qız, Gəlin qayası, Təhnəlicələr, Peyğəmbərin alqışı, Buppu, Xanımküsən və sair nümunələr xalqımızın milli dəyərlərini, etik davranış normalarını, qeyrət və heysiyyətini mühafizəkarlıqla qoruduğunu göstərir. Naxçıvanın bütün dağlıq kəndlərində daşa dönmüş gəlin və qızlarla bağlı eyni mövzulu əfsanələr vardır. Onlar arasındakı fərq isə daş abidələrin məkanca müxtəlif yerlərdə olmasıdır. Ən maraqlısı odur ki, həqiqətən də, daşların təbii quruluşu əfsanələrdə sözügeçən mövzu ilə üst-üstə düşür. Ordubadda möcüzə sayılan məkanlardan biri də xalq arasında Nuhun gəmisinin quruya çıxdığı məkan olaraq bilinən sirli-sehrli Gəmiqayadır. Burada yalnız iyul və avqust aylarında hava mülayimləşir. Gəmiqaya qayaüstü rəsmləri əsl sənətkarlıq nümunəsidir. Bu məkan insanların əski inanclarına uyğun olaraq, müxtəlif ayinlərin keçirildiyi yerlərdən biridir. Qayalar üzərində əks olunan zəngin kompozisiyalı təsvirlər də bu fikri təsdiq edir.

Toplamalar zamanı müşahidə etiyimiz diqqət çəkən məqamları da qeydə aldıq. Ordubad şəhərinin küçələri, evləri, tarixi abidələri insanda xoş ovqat yaradır. Çatmatağlı giriş qapıları, evlərin qədim quruluşu – taxçalar (dilov), yük yerləri keçmişin izlərini daşımaqdadır. Şübhəsiz ki, keçmişinə hörmət hissi ilə sakinlər evlərdəki babadanqalma yadigarları qoruyub saxlayırlar. “Qırxpillə” adlandırılan kəhrizlər yüksək tarixi mədəniyyətdən xəbər verir. Söyləyicilərin verdiyi məlumata görə, gəlin gətirəndə evin böyükləri məhəllə kəhrizini nəzərdə tutaraq, sularımız sənindir deyirlər. Kəhrizin məcazi mənada gəlinə hədiyyə verilməsinə paralel olaraq Anadolu türklərində təzə gəlini tayfaya məxsus su yerlərində gəzdirmək adəti vardır.

Aşağı Əylis kəndində evlərinə qonaq olduğumuz sakinlər özünəməxsus ailə ənənələrindən də söhbət etdilər. Bu kənddə kəhrizlər birbaşa həyətlərlə birləşmiş şəkildədir. Bir kəhrizin suyu üstüaçıq su novu ilə digər həyətə axır. Amma heç kim ümumi sudan kobud şəkildə istifadə etmir. Suyu çirkləndirmək ən pis əməl sayılır. Kəhrizlər insanların soyuducuya olan ehtiyaclarını da ödəyir. Ordubad sakinləri süfrə səliqəsini şirin ləhcələri ilə bizə çatdırdıqca onların bu işə də estetik zövqlə yanaşdığının şahidi olduq. Burada qış hazırlığı çeşidliyi ilə zəngindir. Alana, miyanpur, sucuq, gülqənd, mövüc, doşab, gülab, müxtəlif bitkilərdən alınan cövhərlər müalicə vasitəsi kimi istifadə olunur. Ümumiyyətlə, Ulu Yaradan bu yerdən heç bir nemətini əsirgəməyib.

Bayram xonçasına düzülən nemətlərə görə “yeddiləvin” adlanan ilin axır çərşənbəsi burada xüsusi təntənə ilə keçirilir. Azərbaycan türklərinin süfrəsi özünəməxsus zənginliklə yeddidən də artıq nemətlə – meyvə quruları, çərəzlər, paxlava, şəkərbura, bayram kökələri və sairə ilə bəzənir. Yeddi rəqəmi burada simvolik məna ifadə edir.

Azərbaycan şifahi xalq ədəbiyyatı öz inci saflığı ilə uzun əsrlərin sınağından çıxıb, xalqın milli birliyinə stimul verən əsas səbəb olub. Xalqın şifahi yaradıcılığı onun milli düşüncəsini, mənəvi aləmini, etnomədəni yaşayışını əks etdirən vasitədir. Hər bir xalqın tarixinin həm təzadlı səhifələri, həm də cavabsız sualları vardır. Bu düyünlər isə məhz mənəviyyatla, etnik soykökün araşdırılması ilə açılır. Tarixi hadisələrin şərhi subyektiv ictimai-siyasi münasibətlər zəminində dəyişdirilə, yaxud təhrif edilmiş yazılı mənbələr şəklində təqdim oluna bilər. Lakin dəyişməyən xalqın hadisələrə baxışından yaranan münasibətdir. Xalq, bütövlükdə, mənəvi aşınma yaşaya bilməz. Bu, müxtəlif ictimai-siyasi formasiyalarda meydana gələn müəyyən deformasiyalara bağlı olur. Sovetlər dönəmində şura və kommunizm haqqında süni şəkildə bayatılar uydurulsa da, bunlar uzunömürlü ola bilmədilər. Çünki etnos yalnız mənəvi tələblərini, kimliyini milli şüurunun süzgəcindən keçirərək möhürbənd kimi öz folklorunda əks etdirir.

***Naxçıvan Muxtar Respublikasının bütün rayon və kəndlərindən topladığımız nümunələr etnik kimliyi, ümumtürk arealının coğrafi sərhədlərini müəyyən edir. Xalq yaddaşında minillərlə hifz olunan bu nümunələrdə etnosun estetik zövqü, mənəvi aləmi, dünyagörüşü öz əksini tapıb.***

**Məhsəti İSMAYIL**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

***Naxçıvanda xalq təqvimi ilə bağlı keçirilən mərasimlərdən biri də “Xıdır” və yaxud “Xıdır Nəbi” bayramıdır. Bu bayram “qışın oğlan çağında” – kiçik çillənin onuncu günü, yəni çillənin yarısında, Novruzdan altı həftə əvvəl qeyd edilir. Kiçik çillə yanvar ayının 31-dən fevralın 19-na qədər olduğundan “Xıdır” bayramı fevralın 9-da, kiçik çillənin yarı olduğu gündə keçirilir. Yanvar ayının 31-də başlanan kiçik çillənin yarısı isə fevralın 9-na təsadüf edir.***

# Xıdır Nəbi bayramı

Şərur rayonunun Aşağı Yaycı kəndindən topladığımız məlumata görə, burada “Xıdır” bayramı fevralın 5-i, qışın yarı olduğu gün keçirilir. Kəngərli rayonundakı Çalxanqala kəndində, Təzəkənddə isə “Xıdır Nəbi” bayramı fevralın 14-ü (15-i) – Xızır Peyğəmbərin anadan olduğu gün kimi qeyd edilir.

“Xıdır Nəbi” bayramını dinlə əlaqələndirirlər. Naxçıvan şəhərində indi də yanlış olaraq bayramı kiçik çillənin ikinci cümə axşamında qeyd edirlər. Ancaq bilirik ki, “Xıdır Nəbi” bayramının dinlə heç bir əlaqəsi yoxdur. Əldə olunan materiallara əsaslanaraq deyə bilərik ki, bayram çətinlikdə insanların dadına, köməyinə çatan istilik ilahəsi Xızırla bağlı olub, onun şərəfinə keçirilir. Bu isə İslamdan öncə formalaşmış əski türk inancıdır. Deməli, “Xıdır Nəbi” bayramı kiçik çillənin yarı olduğu gün – fevral ayının 9-da keçirilməlidir.

Naxçıvan bölgəsində bayrama bir neçə gün qalmış onu qarşılamaq üçün hazırlıq işləri görülür, evlər səliqə-sahmana salınır, həyət-baca təmizlənir. İnama görə, səliqəsiz evə Xızır gəlməz. Bayramda qovurmaq üçün buğda, küncüd təmizlənir, bir çox yaşayış məntəqələrində (Teyvaz, Qıvraq, Şahtaxtı) Günəşi çağırmaq anlamında, Günəşin, yazın rənginə uyğun olaraq, qırmızı rəngdə yumurta boyanır. Qeyd edək ki, yumurta boyanması başqa kəndlərdə yoxdur. Ümumiyyətlə, bu adətə Novruz bayramında əməl edilir. Bəzi kəndlərdə isə Günəşin, istiliyin rəmzi olaraq çömçə bəzəyirlər. Bildirmək istərdik ki, Naxçıvan bölgəsində Günəşi çağırmaq anlamında Qodu mərasimi də (Novruz bayramı ərəfəsində) keçirilir.

Qovrulmuş buğdadan (qovurğadan) qovut hazırlanır: qovurğa kir-kirədə (dəstərdə) çəkilir və yaxud həvəngdəstədə döyülür. Qovutu quru yemək çətin olduğundan ona bir az şərbət və ya doşab əlavə edilir.

Qovurğa ilə bərabər, bayram günü badam, noxud, günəbaxan tumu qovrulur, plov süzülür, xəşil bişirilir, müxtəlif şirniyyat növləri hazırlanır və süfrəyə düzülür. Evdə olan adamların sayına görə plovun yanına şam qoyulur. Çox təəssüf ki, hazırda bu adətlərin bir qismi icra olunmur. Maraqlıdır ki, Xıdırda plov hazırlamaq, şam yandırmaq adəti Naxçıvan Muxtar Respublikasının hər tərəfində qeydə alınmamışdır.

Bayram hamıdan çox uşaqların sevincinə səbəb olur. Hava qaralan kimi onlar qapılara gedib torba, papaq atır. Pay gözləyənlər aşağıdakı misraları söyləyirlər:

*Xıdıra-xıdır deyərlər,*
*Xıdırın payın verərlər.*

və yaxud

*Çatma, çatma çatmaya,*
*Çatma yerə batmaya.*
*Xıdırın payın kəsənin*
*Ayağı yerə çatmaya.*

Torbalara müxtəlif növ şirniyyat, çərəzlər qoyub uşaqları yola salırlar. Onu da qeyd edək ki, Culfa bölgəsində mal-qaranın yemi, insanların özlərinin ərzaqları qurtardıqda evin bacasından ip, ipə bağlanmış corab sallayar, Xıdır Nəbidən mal-qara üçün yem, özləri üçün ərzaq istəyərdilər. Toyuğu, cücəsi olmayanlar ipin ucuna lələk bağlayıb toyuq-cücəsi çox olanların evinin bacasından içəri sallayardılar. Evin yiyəsi də həmin adamın toyuq istədiyini bilib torbaya toyuq qoyardı. Demək olar ki, “Xıdır Nəbi” bayramı çətinliklərdən qurtulmaq, darda qalanlara kömək etmək, beləcə, bərabərlik anlamında keçirilən əsl milli bayramdır.

Topladığımız etnoqrafik materiallardan aydın olur ki, qovut çəkməklə yanaşı, bəzi kəndlərdə bayram gecəsi xəşil bişirib yük yığılmış taxtın altına qoyurlar. Çəkilmiş qovutdan da taxtın altına qoymaq adəti var. İnanca görə, Xızır Peyğəmbər gecə gəlib xəşilə barmağını, qovuta isə əlini basacaqdır. Xızırın atının ayaq izinin qovuta düşdüyünə inanılır. Səhər xəşilin, qovutun üzərində müəyyən iz olsa, bunu Xızırın əlinin, barmağının və ya atının ayaq izi hesab edərdilər. Deyirdilər ki, bu il həmin evə uğur qismət olacaq, arzular həyata keçəcəkdir.

Digər bir inama görə, bayram günü xəşil bişirilib qalağın üstünə qoyulur. Əgər qəcələ (dolaşa) gəlib xəşildən bir dimdik götürüb uçub getsə, həmin evin qızı bu il özgə kəndə, əksinə, yerə salarsa, öz kəndinə ərə gedəcəkdir. Başqa bir inamda da deyilir ki, xəmirin içinə muncuq qoyulub kökə bişirilir. Həmin muncuq kimin payının içindən çıxarsa, demək, həmin insan tezliklə istəyinə çatacaqdır.

Xıdır Nəbi günü oğlan evindən nişanlı qızlara, ata evindən təzə gəlinlərə “Xıdır payı” aparmaq adəti də geniş yayılıb. Müxtəlif çərəzlərdən xonça tutulur. Onu da qeyd edək ki, Cəhri, Payız, Gülşənabad kəndlərində bunun əksinə olaraq, nişanlı oğlanlara qız evindən pay aparırlar. Payda bəyə isti köynək, yun corab da qoyulur.

“Xıdır Nəbi” bayramında doğulan oğlan uşaqlarına Xıdır, Nəbi, İlyas və sair kimi adların qoyulması ənənəsi də geniş yayılıb. Xıdır gecələrində axşamdan səhərə qədər külək əsərsə, deyərlər ki, bu, Xıdır Nəbidir – atını çapa-çapa bərəkət paylayır. Əsən külək isə onun boz atının yelidir.

Xıdırın boz at minməsinə “Kitabi-Dədə Qorqud” dastanında da rast gəlirik. İnsanlar daim çıxılmaz vəziyyətdə qalanda bozatlı Xızırı arzulayıb, o isə öz köməyini əsirgəməyib, onlara yol göstərib. Əski türk inanc sistemində Xızır yolda qalanların yardımına gedən bozatlı yol əyəsi təsəvvür edilib.

Xalq arasında olan inama görə, Xıdır Nəbi günü havaların xoş keçməsi, ilin bol, bərəkətli olmasına işarədir.

Xızır həm də istilik və odla bağlıdır. Yuxarıda göstərdik ki, süfrəyə gətirilən aşın kənarlarına şam qoyurlar. Bu şamların qoyulması və yaxud

*Xıdıra Xıdır deyərlər,*
*Xıdıra çıraq qoyarlar.*

deyimi də odla, istiliklə, istiliyi çağırmaqla əlaqəlidir. Bu eyni zamanda qışın şaxtasının, soyuğunun odla, isti ilə əvəzləyəcəyinə, torpağın isinib oyanacağına işarədir. Bu dövr qışın ən soyuq günlərindən biridir. Xalq arasında “Xıdır girdi, qış girdi” kimi deyim də mövcuddur.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

***İtmişdir***

Naxçıvan şəhəri, Mircəfər Mirişli küçəsi, ev 14-də yaşamış Zeynalov Zeynal İsmayıl oğlunun adına olan evin 1976 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 95